**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELYASİYA ŞURASI**

**Q Ə R A R**

**№2**

**Bakı şəhəri** **24 sentyabr 2020-ci il**

Apelyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apelyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Gülnarə İlqar qızı Məmmədovanın Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il 13 iyul tarixində keçirilən müsabiqə üzrə müsahibə nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Məmmədova Gülnarə İlqar qızı Dövlət Statistika Komitəsi aparatında İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 13 yanvar tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 13 iyul 2020-ci il tarixində Dövlət Statistika Komitəsinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Çimnaz Əliyeva, Dövlət İmtahan Mərkəzinin İnformasiyalaşdırma və texnoloji təminat şöbəsinin baş məsləhətçisi Elməddin Muxtarzadə və müstəqil ekspert Osman Gündüzdən ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədova Gülnarə İlqar qızına müsahibə komissiyasının üzvlərindən Elməddin Muxtarzadə və Çimnaz Əliyeva 16 bal, Gündüz Osman isə 14 bal vermiş və nəticədə iştirakçı 15.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 23.07.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apelyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Elməddin Muxtarzadənin rəyinə əsasən namizədin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü və vakant vəzifə üçün zəruri olan keyfiyyətləri müsbət qiymətləndirilmişdir. Müstəqil ekspert Osman Gündüz isə namizədin bilik səviyyəsi və peşə hazırlığını orta, ümumi dünyagörüşü və vakant vəzifə üçün zəruri olan keyfiyyətlərini isə yaxşı qiymətləndirmişdir. Müsahibə komissiyasının digər üzvü Çimnaz Əliyeva bildirmişdir ki, namizəd peşə hazırlığı ilə bağlı verilən suallara dolğun cavablar vermişdir.

Yuxarıda göstərilənlər və Apelyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apelyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Məmmədova Gülnarə İlqar qızının İnformasiya texnologiyaları şöbəsinin Sistem təminatı və texniki xidmət sektorunun aparıcı məsləhətçi

vəzifəsinin tutulması üçün 2020-ci il iyulun 13-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**